## Füzulinin işğalından 23 il keçir

# Torpaqlarımız işğaldan azad olunacaq

Ürək ağrısı ilə xatırladığımız günlərdən biri də 23 avqustdur. Füzuli və Cəbrayıl rayonlarının Ermənistan silahlı qüvvələri tərəfindən işğalı 1993-cü ilin məhz həmin gününə təsadüf edir.





Füzuli rayonu Azərbaycanın suyu bol, torpağı münbit, havası saf, təbii sərvətlərlə zəngin olan bölgəsidir. Rayonun ərazisi 1386 kvadratkilometr, əhalisi 110 min nəfərdən çoxdur. Rayon iki şəhər, 75 kənd və başqa yaşayış məntəqələrindən ibarətdir. Füzulinin işğalına gətirib çıxaran başlıca səbəb o vaxtkı AXC-Müsavat iqtidarının səriştəsizliyi, zəifliyi idi. Qeyri-peşəkar idarəetmə ölkədə hərc-mərclik, xaos, gerçək bir anarxiya yaratmışdı. Hərbdə vahid komandanlığın olmaması, ayrı-ayrı silahlı dəstələrin düzgün koordinasiya edilməməsi onsuz da zəif olan gücümüzü bir az da zəiflədir, Ermənistan silahlı birləşmələrinin hücumlarını qarşısıalınmaz edirdi. Qeyri-bərabər döyüşlər Füzuli rayonu üçün ağır nəticələr verdi. 1.100 nəfərdən çox rayon sakini şəhid oldu, yaxud itkin düşdü. 113 nəfər əsir götürüldü. 1450 nəfər müxtəlif dərəcəli xəsarət alıb əlil oldu.

Xalqın israrlı tələbilə Heydər Əliyevin o ağır günlərdə yenidən Azərbaycan hakimiyyətinə gəlməsi hər yerdə olduğu kimi, orduda da qeyri-adi bir canlanma yaratdı. Əsgərlər "Heydər Əliyev uğrunda" şüarlar səsləndirib qanlı döyüşlərə atılır, gözlərini belə qırpmadan ölümün üstünə gedirdilər. Təsəvvürə sığmayan belə fədakarlıqların nəticəsi olaraq düşmən caynağından xeyli ərazi qoparıldı. Arazboyu zonada Horadiz qəsəbəsi və çox sayda kənd erməni silahlı qüvvələrinin işğalından azad edildi.

Hazırda rayonun işğaldan azad olunmuş ərazilərində 13 qəsəbə salınmışdır. Doğma ev-eşiyindən, isti yuvasından perik salınmış 51 min nəfərdən çox Füzulidən olan məcburi köçkün hər cür rahatlığı olan geniş, işıqlı və rahat evlərdə yaşayır. İşğaldan sonrakı illər ərzində dövlət Füzuli əhalisinin həyat səviyyəsini yüksəltmək, məişət rahatlığını, faydalı məşğulluğunu təmin etmək üçün zəruri tədbirlər görmüşdür.

Prezident İlham Əliyevin bu cəbhə bölgəsinə çoxsaylı səfərləri rayon əhalisində yüksək əhval-ruhiyyə yaratmaqla, qələbəyə inamı artırmaqla yanaşı, bölgənin sosial simasını da başdan-başa dəyişdirmişdir. Dövlətin davamlı və yetərli qayğısı sayəsində Horadiz müharibənin xarabalıqları üzərində qurulmuş son dərəcə abad və müasir bir şəhərə çevrilmişdir. Çəkilən abad və rahat asfalt yollar, yeni tikilən çoxsaylı sosial obyektlər, ictimai-siyasi sabitlik, sağlam mənəvi-psixoloji mühit rayon əhalisinin firavan yaşamasına hesablanır və hər kəsdə razılıq, hədsiz minnətdarlıq hissi doğurur.

Bölgədə müşahidə olunan əsas şərt odur ki, Füzuli camaatı böyük qələbənin tezliklə qazanılacağına, respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müdrik siyasəti və yenilməz qətiyyəti sayəsində Qarabağın işğaldan tamamilə azad ediləcəyinə birmənalı şəkildə inanırlar. "İnam isə qələbənin yarısıdır" - deyib müdriklərimiz. İnam varsa, qələbə mütləq olacaq.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***